# "Qarabağ" vahid liderdir



**"Qarabağ" - "Neftçi" - 4:0**
**Qollar:** Ozobiç, 11, Zubir, 15, Ozobiç, 23-pen.Veşoviç, 90+2
**Baş hakim:** Əliyar Ağayev

TURNİR CƏDVƏLİ

| N | KLUBLAR | O | Q | H | M | T/F | X |
|---|---|---|---|---|---|---|---|
| 1 | Qarabağ | 9 | 6 | 2 | 1 | 18-7 | 20 |
| 2 | Neftçi | 9 | 5 | 2 | 2 | 16-13 | 17 |
| 3 | Qəbələ | 9 | 4 | 3 | 2 | 16-11 | 15 |
| 4 | Zirə | 9 | 4 | 3 | 2 | 12-8 | 15 |
| 5 | Sumqayıt | 9 | 3 | 2 | 4 | 7-8 | 11 |
| 6 | Səbail | 9 | 3 | 0 | 6 | 8-18 | 9 |
| 7 | Keşlə | 9 | 2 | 1 | 6 | 8-16 | 7 |
| 8 | Sabah | 9 | 2 | 1 | 6 | 9-13 | 7 |

*Ötən həftə Azərbaycan Premyer Liqasında 9-cu tura yekun vuruldu. Turun mərkəzi matçında, 85-ci dəfə baş tutan Azərbaycan derbisində lider "Qarabağ" son çempion "Neftçi" ilə qarşılaşıb və 4 cavabsız qolla qalib gəlib. Bununla da xallarının sayını 20-yə çatdıran Ağdam klubu vahid liderliyə yüksəlib.*
*Matçın gərgin mübarizə şəraitində keçəcəyi gözlənilsə də, heç də elə olmadı. "Qarabağ" bütün komponentlərdə paytaxt təmsilçisini üstələyərək ilk hissədə oyunun taleyini həll etdi.*



Matçın əvvəlində "Neftçi"nin hücum xətti meydançanın 3-cü zonasında pressinq tətbiq edərək meydan sahiblərinin müdafiədən top çıxarmasına mane olmağa çalışdı. Görünən odur ki, "ağ-qaralar"ın baş məşqçisi Samir Abasov Ağdam təmsilçisinin UEFA Konfrans Liqasında Qazaxıstan klubu "Kayrat"la matçı üzərində təhlillər aparıb ki, məhz bu amilin "Qarabağ"ın mərkəzdə boş zonalar yaratmaqla yanaşı, itirilən hər topun ağdamlıların qapısı qarşısında təhlükəli epizodlar yaranmasına səbəb olacağını düşündü. Bu taktika əslində matçın ilk 5 dəqiqəsində özünü doğrultdu. Lakin "Neftçi"də fiziki və psixoloji hazırlığın istənilən səviyyədə olmaması bu oyun planını sona qədər tətbiq etməyə imkan vermədi.

Qeyd edək ki, məşqçilər korpusunun mövsümün əvvəlindən oyun planında qurmağa çalışdığı 3-lü müdafiə sisteminin komandaya uyğun olmaması, bu zonada ciddi mövqe seçimləri ucbatından "ağ-qaralar"ın saysız-hesabsız xal itkilərinə məruz qalması avrokuboklarda mübarizəni erkən dayandırmasına səbəb olub. Adətən hər bir komanda heyətində yer alan futbolçuların profillərinə uyğun olaraq oyun planı müəyyənləşdirir. "Neftçi"də isə oynanılan qarşılaşmalar göstərdi ki, hazırkı heyət onun oynatmaq istədiyi sistemə uyğun deyil. Bu inadkarlıq yekunda bu postdan istefaya göndərilməklə nəticələnə bilər.

Elə həmin səhvlərin fonunda müdafiənin arxasına atılan ötürmələrdən birində "Qarabağ" Ozobiçlə hesabı açdı. Qoldan sonra ağdamlılar qurulan hücumlarda topun sürətini daha da artırdılar. Qurban Qurbanovun tətbiq etdiyi təzyiq "Neftçi"nin meydançada müdafiənin mərkəzində və cinahlarda yer alan oyunçuları arasında əlaqəni kəsdi. Nəticədə 3-cü zonada yer alan futbolçular məcbur olaraq həm müdafiəolunmada, həm də topu alaraq hücumların qurulmasında səy göstərdiklərinə görə meydançanın rəqibə aid hissəsində çoxala bilmədilər. Ardıcıl vurulan qollar sayəsində "Qarabağ" 4:0 hesabı ilə qələbə qazanaraq turnir cədvəlində liderliyə yüksəldi.

Matçdan sonra "Neftçi"nin baş məşqçisi Samir Abasovun fikirlərini diqqətə çatdırırıq: "Keyfiyyətdə rəqibə uduzuruq. Səviyyə fərqi həddən artıq görünür. Bəzi məqamları bilirik. Boynuma alıram ki, onları düzəldə bilmərik. Çünki bu vaxta kimi keçirdiyimiz oyunlar göstərir ki, balanssızlıq var. Bu, hücumlarımızdadır. Bunu hamımız bilirik, amma dəyişə bilməyəcəyik.... Emin Mahmudovu çıxmaq şərtilə digər yerli oyunçularımız bu gün oyunlara cavab vermir. Mert Çelikin düzəlməsi də sual altındadır".

Paytaxt klubunun baş məşqçisinin uğursuzluğu yalnız futbolçularda görməsi, ictimaiyyət qarşısında tənqid etməsi, "Neftçi"yə yaraşmayan bu addımı əslində komandada mənəvi böhran keçirildiyini də göstərir. Düzgün aparılmayan transfer siyasətinin, intizamsızlığın, oyunçular arasında intriqaların ucbatından "Neftçi" yarışda geriyə düşməkdə davam edir. Sonuncu qarşılaşmada isə flaqmanın çempionluğa hazır olmadığı açıq-aşkar görsəndi. Klub rəhbərliyinin uğursuz legioner seçimləri sayəsində yerli futbolçuların oynamaq şansı azalıb, bu azmış kimi yeni gəlmələr də belə vacib matçda forma şansı qazana bilmədilər. Görünən odur ki, bu kimi müxtəlif bəhanələr gətirilməklə onları klubdan küsdürməyə çalışırlar.

***"Qəbələ" - "Sabah" - 1:3***
***Qollar: İsnik Alimi, 69 (pen.) - Coy-Lens Mikels, 20, Fofana Tiemoko, 39, Aleksey İsayev, 63***
***Baş hakim: Elçin Məsiyev***

"Qəbələ" ilə "Sabah" komandalarının duelindən qonaqlar qalib ayrılıblar. İlk qələbəsini ötən turda qazanan bakılılar Murad Musayevlə müqavilə bağlamasına baxmayaraq, səfər görüşünə baş məşqçisiz çıxıb. Bununla belə, paytaxt təmsilçisi Qəbələdən də 3 xalla dönməyə müvəffəq olub. Yalnız böyük hesablı məğlubiyyətə mane olmağa gücü çatan "Qəbələ" isə turnir cədvəlində ikinci pilləyə yüksəlmək şansını əldən verib.

***"Sumqayıt" - "Səbail" - 2:0***
***Qollar: Rəhim Sadıxov, 38, Səid Rza, 74***
***Qırmızı vərəqə: Nikolas Raysel, 63***
***Baş hakim: Fərid Hacıyev***

Turnir cədvəlində qonşu olan komandaların duelindən qalib ayrılan tərəf ilk "dördlük"lə aradakı xal fərqinin böyüməsinə mane olacaqdı. Bir həftə əvvəl "Sabah"a qalmaqallı şəkildə uduzan "Sumqayıt", nəhayət ki, 6 oyunluq qələbə həsrətinə son qoyub. Bu qalibiyyət sayəsində "gənclik şəhəri" təmsilçisi rəqibini turnir cədvəlində geridə qoyub.

***"Zirə" - "Keşlə" - 2:0***
***Qol: Loris Broqno, 17, Ağabala Ramazanov, 42***
***Qırmızı vərəqə: Tural Axundov, 90+4 ("Keşlə")***
***Baş hakim: Rəşad Əhmədov***

Ötən tur məğlubiyyətə düçar olan komandaların duelindən ev sahibləri qalib ayrılıb. Birinci hissədə vurduğu iki cavabsız qolla qələbə qazanan "Zirə" ilk "dördlük"dəki mövqeyini möhkəmlədib.

***Elçin CƏFƏROV,***
***"Azərbaycan"***